**Nağdsız ödənişlər zamanı bəzi problemlər ortaya çıxır...**

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov «İstehlakçı hüquqlarının qorunmasında nağdsız ödənişlərin əhəmiyyəti» mövzusunda çıxışında nağdsız ödəniş sisteminin inkişafının zamanın tələbi olduğunu demişdir:

- Bütün dünya bu tələbə uyğunlaşmaq üçün müəyyən tədbirlər həyata keçirir. Amma nağdsız ödəniş zamanı rastlaşdığımız bəzi xoşagəlməz halların da üstündən sükutla keçmək olmaz: kartla ödəniş zamanı bəzən istehlakçıların aldadılması bu sahənin inkişafına mane olur. Nağdsız ödənişlərdən istifadə zamanı istehlakçıların hüquqlarının pozulması ilə bağlı Azad İstehlakçılar Birliyinə çoxsaylı telefon zəngləri, şikayət ərizələri daxil olur. Həmin müraciətlərin nə dərəcədə doğru olmasını öyrənmək üçün Birliyin əməkdaşları yerindəcə araşdırma aparırlar. Bəzən malın vitrindəki qiyməti ilə skaner kassa aparatında qeydə alınmış qiyməti fərqlənir, yəni vətəndaşlardan daha çox pul çıxılır. Konkret olaraq, «Neptun» marketdə belə hallar aşkarlanmışdır. Eyni zamanda, nağdsız ödəniş zamanı bəzən səhvən artıq hesablanmış pulun müştəriyə qaytarılması müəyyən çətinliklər yaradır. İstehlakçıdan məbləğin artıq alındığını etiraf edən satıcı nağdsız ödənilən pulu geri qaytarmağın guya mümkün olmadığını iddia edir. Halbuki, kartla ödəniş zamanı artıq hesablanan məbləğin yenidən karta qaytarılması mümkündür.

Digər bir problem «smart-kart»larla bağlıdır. İstehlakçılar bildirirlər ki, ödədikləri məbləğ bitmədən qaz kəsilir və bu, guya vətəndaşın borcunun olması ilə izah edilir. Əslində isə vətəndaşın əlində borcunun olmadığını təsdiqləyən rəsmi arayışı olur.

İstehlakçılardan çoxsaylı şikayətlərin daxil olduğu bir faktın da üzərində xüsusi dayanmaq istərdim, hansı ki, mən özüm də bu problemlə üzləşmişəm. «Azpetrol» yanacaqdoldurma məntəqəsində nağd ödəniş edən zaman ödənilən məbləğ çekdə əksini tapmır. Kartla ödəniş zamanı isə 25 qəpik az pul çıxırlar. Belə çıxır ki, nağd ödəniş zamanı istehlakçıların aldadılması baş verir. Mən bununla bağlı məsələnin araşdırılması üçün Vergilər Nazirliyinə rəsmi müraciət etmişəm.

Haşiyə: Eyyub Hüseynovun səsləndirdiyi problemlə bağlı mövqeyini açıqlayan Vergilər Nazirliyinin İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin rəisi Natiq Şirinov yaxın zamanlarda məsələnin araşdırılacağını və müraciətə rəsmi cavab veriləcəyini qeyd etdi.